# MİKAYİL MÜŞFİQİN XATİRƏSİ ANILDI

***Yanvarın 6-da «Ulduzlar fikrimin çıraqbanıdır», — deyən görkəmli söz ustadı, şair, tərcüməçi, pedaqoq, ictimai xadim, XX əsr Azərbaycan ədəbiyyatının klassiki Mikayıl Müşfiqin Yasamal rayonunda tədbiri keçirildi.***



«Könüllülər» Kitabxana İctimai Birliyinin təşkilatçılığı, Yasamal Rayon İcra Hakimiyyətinin və Yasamal Bələdiyyəsinin dəstəyi ilə təşkil olunan tədbirdə əvvəlcə, Müşfiqsevərlər, sənət adamları, Yasamal rayon ictimaiyyəti illərdən bəri formalaşan ənənəyə sadiq qalaraq ədibin İnşaatçılar prospektindəki abidəsi önünə gül-çiçək düzərək görkəmli şairin xatirəsini dərin ehtiramla yad etdilər.

Tədbirin aparıcısı, uzun illərdən bəri Müşfiq ədəbi irsinin tədqiqatçılarından olan əməkdar jurnalist, pedaqogika üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin vitse-prezidenti Qafar Əsgərzadə açılış nitqində şairin həyatı və çoxşaxəli yaradıcılığı barədə geniş məlumat verdi.

«Ruhun, Qəlbin dili Müşfiqin şeirlərində və şeirlərinə yazılmış mahnılardadır», — deyən natiq çıxışında görkəmli ədəbiyyatşünas alim, filologiya elmləri doktoru, yazıçı, əməkdar elm xadimi Mircəlal Paşayevin Müşfiq haqqında söylədiyi fikirləri də səsləndirmişdir: «Mikayıl Müşfiq Azərbaycan poeziyasında parlayan, çağlayan bir dağ şəlaləsidir. Onun dərin lirizmə malik lirik, romantik sənət inciləri milyonlarla insanın qəlbinə hakim kəsilərək, onu XX əsr Azərbaycan ədəbiyyatının ən qüdrətli klassiklərdən birinə çevirmişdir. Mikayıl Müşfiq — bu ad hər bir Azərbaycan vətəndaşının, Azərbaycan oxucusunun sevdiyi, əsərlərini dönə-dönə, sevə-sevə oxuduğu, fəxr duyduğu bir şair, sənətkardır. Ölümündən 88 il vaxt keçir. Lakin hər zaman o yad edilir, oxunur, sevilir. Bu onun şair qüdrətindən, şair xoşbəxtliyindən xəbər verir. Görəsən, Müşfiqə olan bu dəyişməyən sevginin kökündə nə durur? Zənnimizcə, bunun bir cavabı vardır: ədibin fitri istedadı, sənətə, sözə tükənməyən sevgisi, dürüstlüyü, mərdliyi, biriya olmasıl. Mikayıl Müşfiqin şəxsiyyətini, yaradıcılığını təhlil edəndə əmin olursan ki, o, ulu yaradanın bizə — bəşəriyyətə bəxş etdiyi hədiyyəsidir. O, Allah vergisi, seçilmişlərdəndir. 29 yaşında klassik zirvəsinə yüksəlmək heç də hər bir sənətkara nəsib olmur...»



Natiq çıxışının sonunda tədbirdə iştirakına görə Milli Məclisin deputatı Göydəniz Qəhrəmanova, Yasamal bələdiyyəsinin sədri Tahir Məmmədova, Yasanmal rayon icra hakimiyyətinin nümayəndələrinə tədbirin bütün iştirakçılarına təşəkkürünü bildirdi.

Filologiya üzrə fəlsəfə doktoru, ədəbiyyatşünas, tənqidçi, şair-nasir, tərcüməçi, maraqlı bədii əsərlər müəllifi, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun «Ədəbiyyat nəzəriyyəsi» şöbəsinin aparıcı elmi işçisi, dosent, fəxri professor, Azərbaycan Yazıçılar Birliyinin, Respublika Jurnalistlər Birliyinin, Respublika Aşıqlar Birliyinin üzvü Rasim Nəbioğlu çıxışında qeyd etdi ki, Müşfiq lirik-epik lövhələrin, peyzajların ən mükəmməl nümünələrini bir rəssam təxəyyülü ilə yaradıb, Azərbaycan ədəbiyyatını əsl sənət inciləri ilə zənginləşdirib. Şifahi xalq və yazılı klassik ədəbiyyatımızdan ustalıqla bəhrələnən görkəmli söz sərrafı olan Müşfiqin poeziyasının əsas bədii keyfiyyətlərini dərin lirizm, emosionallıq, ahəngdarlıq, yığcamlıq təşkil edir...

Əməkdar artist, bəstəkar-müğənni Elza Seyidcahanın, Dilbər Axundzadənin qızı Leyla Axundzadənin, xalq yazıçısı Gülhüseyn Hüseynoğlunun yadigarı Toğrul Abdullayevin çıxışlarında vurğulanmışdır ki, Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, repressya qurbanı olmuş, ilk şəhid şair M.Müşfiqin şəxsiyyəti və yaradıcılığı gənc nəsilin milli-mənlik şüurunun inkişaf etdirilməsi, vətənpərvərlik hisslərinin tərbiyəsində əvəzsiz xəzinədir. Çıxışlarda həmçinin, musiqi mədəniyyətimizin inkişafında, onların gənc nəsildə formalaşmasında Müşfiq sözlərinə yazılmış mahnıların rolundan da söz açıldı.

Bədii-qiraətçi Rəsmiyyə Heybətağa qızı şairin «Könlümün dedikləri» və «Küsmərəm» şeirlərini gənc tarzən Asim Pirimovun müşayiəti ilə ifa etdi.

Müşfiqin yaxın qohumu Reyhanə İsmayılzadə tədbirin təşkilində göstərdikləri köməyə görə Milli Məclisin deputatı Göydəniz Qəhrəmanova, Yasamal Bələdiyyəsinin sədri Tahir Məmmədova, «Könüllülər» Kitabxana İctimai Birliyinin sədri, «Tərəqqi» medalçısı Niyaz Eyvazova, əməkdar jurnalist, pedaqogika üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin vitse-prezidenti Qafar Əsgərzadəyəvə digərlərinə təşəkkürünü bildirdi.

Sonda əməkdar jurnalist Şəmsiyyə Kərimova, əməkdar jurnalist Mədinə Həsənova, əməkdar artist Faiq Əlibalayev, əməkdar mədəniyyət işçisi bəstəkar Rauf Məmmədov, əməkdar mədəniyyət işçisi Qəmər Seyfəddinqızı, C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının müdiri Aslan Cəfərov, Mədəniyyət TV, Xızı TV-nin yaradıcısı Murad Abasov, müşfiqsevərlər Sənan Talıbov, Rəsmiyyə Heybətağa qızı, Şahin Əliyev,Təranə İsmayılova, Minayə Feyzullayeva, Elşad Dağlı, Nigar Mövsümova Müşfiq yaradıcılığının təbliğində xüsusi xidmətlərinə görə «Könüllülər» Kitabxana İctimai Birliyinin Fəxri Fərmanı ilə təltif olundular. Təltif olunanlar Birliyin sədri, «Tərəqqi» medalçısı Niyaz Eyvazova təşəkkür etdilər.

Sonra maşın karvanı şairin ata-baba yurdu Xızının Sayadlar kəndinə yan aldı. Sayadlar kəndində Müşfiqin ev muzeyində şairin anım tədbiri davam etdirildi. Tədbirə toplaşan şairlər, yazıçılar, elm və incəsənət xadimləri Mikayıl Müşfiqin ədəbiyyat tariximizdəki mövqeyindən, lirikasının səciyyəvi cəhətlərindən söz açdılar.

Anım mərasimində «Şöhrət» ordenli, əməkdar müəllim, Prezident təqaüdçüsü, şair Ofelya Babayeva, Sumqayıt Regional Mədəniyyət İdarəsinin Xızı rayon nümayəndəliyi üzrə baş məsləhətçi Mönsüm Bağırov, Xızı Rayon İcra hakimiyyətinin məsul işçisi Fətulla Əliyev, filologiya üzrə fəlsəfə doktoru, dosent Rasim Nəbioğlu, əməkdar jurnalist, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Qafar Əsgərzadə, şairlərdən İbrahim İlyaslı, Nəcməddin Mürvətov-,eləcə də Leyla Axundzadə, Reyhanə İsmayılzadə və başqaları M.Müşfiqin yaradıcılığının gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və gənclərimizə vətənpərvərlik hisslərinin aşılanmasında əvəzsiz xəzinə olduğunu vurğuladılar.

Əməkdar artistlər Elza Seyidcahan, Rəşad İlyasov, əməkdar mədəniyyət işçisi Rauf Məmmədov şairin sözlərinə yazılmış mahnıları ifa etməklə tədbirə xüsusi rəng qatdılar.

Elə həmin gün Siyəzən və Qaradağ rayonlarında da şairin anım tədbirlərləri keçirildi.

**Azadə ƏSGƏRZADƏ.**

